# Biznes əməliyyatları hesabatı

## 2020-ci ilin nəticələri

# Əsas göstəricilər (2020-ci ilin sonu)

| | |
|---|---|
| **Hasilat** | |
| **AÇG** | |
| neft (min barel/gün) | 477 |
| neft (milyon ton) | 23,6 |
| **Şahdəniz** | |
| qaz (milyard kubmetr) | 18,1 |
| kondensat (milyon ton) | 3,6 |
| **Əməliyyat məsrəfləri** (milyon dollar) | |
| **AÇG** | 531 |
| **BTC** | 111 |
| **Şahdəniz** | 1031 |
| **CQBK** | 47 |
| **Əsaslı məsrəflər** (milyon dollar) | |
| **AÇG** | 1817 |
| **BTC** | 29 |
| **Şahdəniz** | 942 |
| **CQBK** | 13 |

# 2020-ci ilin mühüm hadisələri – AÇG əməliyyatları

- İl ərzində AÇG-də 11 neft hasilat quyusu tamamlanıb.
- İlk neft hasilatından bəri AÇG-dən ümumi hasilat **3,8 milyard bareldən** çox olub.



Dərinsulu Günəşli platforması

# 2020-ci ilin mühüm hadisələri – Azəri Mərkəzi Şərqi (ACE) layihəsi

- **Mühəndis-layihə və təchizat işləri** layihə planına uyğun davam edib.
- **Platformanın üst modullarının və qazma modulunun** inşası davam edib və iri qurğuların qaldırılması proqramı başlanıb.
- **Qazma qurğusu** tikinti sahəsinə gətirilib və onun hər üç hissəsi barjadan boşaldılaraq sahənin tikinti hissəsində yerləşdirilib.
- **Dayaq blokunun tikintisi** davam edib. Dayaq blokunun payalarının inşası başa çatdırılıb və platformanın yerləşəcəyi yerdə dəniz dibinə quraşdırılıb.


Bayıl tikinti sahəsində alt göyərtənin qaldırılması

# 2020-ci ilin mühüm hadisələri – Şahdəniz əməliyyatları

- Şahdəniz yatağından ilk hasilat başlandığı vaxtdan ümumilikdə təqribən **135 milyard kubmetr qaz** və **32 milyon ton kondensat** əldə edilib.
- **Şahdənizdən** yeni Cənub Qaz Dəhlizi vasitəsilə **Avropaya ilk kommersiya qaz nəqli** 31 dekabr tarixində **başlanıb**.
- İsrafil Hüseynov borudüzən gəmisi şərq-cənub cinahına bağlanan axın xətlərinin **mexaniki quraşdırılmasını** oktyabr ayında təhlükəsiz şəkildə başa çatdırıb. Bu, layihə üzrə mühüm bir işdir.
- Xankəndi gəmisi Şahdəniz 2 üçün **axın xətlərini birləşdirmə bloku** və ona birləşən digər sualtı hasilat qurğularının quraşdırılmasını uğurla başa çatdırıb.



Şahdəniz Bravo platforması və Xankəndi gəmisi

# 2020-ci ilin mühüm hadisələri – Səngəçal terminalı

- 2020-ci il ərzində Səngəçal terminalından təxminən **239 milyon barel neft** və **17,8 milyard kubmetrdən çox Şahdəniz qazı** ixrac olunub.
- Hazırda terminal gündəlik **1,2 milyon barel neft və kondensat** və **105 milyon kubmetr qaz** (həmçinin 85 milyon kubmetr Şahdəniz qazı) ixrac etmə gücünə malikdir.



Səngəçal terminalı

# Geoloji kəşfiyyat üzrə 2020-ci ilin mühüm hadisələri

- 2020-ci ilin 13 yanvar tarixində Şəfəq-Asiman dəniz blokunda **ilk kəşfiyyat quyusunun qazılmasına başlanıb**. Hal-hazırda quyuda qazma işləri 5305 metr dərinliyində aparılır.
- D230 dəniz blokunda **3-ölçülü seysmik tədqiqat işləri** 14 mart 2020-ci ildə **uğurla başa çatıb**. Əldə olunmuş bütün məlumatın emalı prosesi oktyabr ayında başa çatıb.
- Dayazsulu Abşeron blokunda qazılacaq **ilk kəşfiyyat quyusu üzrə Ətraf Mühitə və Sosial-iqtisadi Sahəyə Təsirin Qiymətləndirilməsi sənədi avqust ayında ictimaiyyətə açıqlanıb.** İki aylıq açıqlama müddətindən sonra ƏMSSTQ sənədi yenilənib, 2021-ci ilin ikinci rübündə qazma işlərinə başlamaq üçün lazımi icazələrin alınması məqsədilə yenidən  hökumətə təqdim edilib.



Gilavar seysmik tədqiqat gəmisi


Heydər Əliyev qazma qurğusu

# Yerli kadrlar

- 2442 nəfər Azərbaycan vətəndaşı bp-də işləyir (müddətli müqavilə əsasında işləyənlər daxildir).
- Azərbaycanda ixtisaslı işçilərin 90%-i yerli kadrlardır

**Azərbaycanda ixtisaslı daimi işçilər**








# 2020-ci ildə yerli ehtiyatlardan istifadə

| **Yerli podratçılar/təchizatçılar (Azərbaycan-Gürcüstan-Türkiyə regionu)** | **Sayı** | **Xərclənib** (milyon dollar) | |
|---|---|---|---|
| • Kiçik və orta müəssisələr | 232 | 330,7 | **Ümumi üçüncü tərəf xərclərinin 56%-i** |
| • Dövlət şirkətləri | 25 | 41,1 | |
| • Yerli tərəfdaşı olan birgə müəssisələr | 16 | 957,8 | |
| • Xarici podratçıların ölkə daxilində məsrəfləri | | 558,5 | |
| **Ölkə daxilində cəmi xərclər**[1] | | **1888,1** | |

1. Bu məbləğ bp-nin yerli şirkətlərlə birbaşa xərclərini  və regionda fəaliyyət göstərən xarici şirkətlərlə müqavilələr üzrə yerli işçi qüvvəsinə / xidmətlərə / materiallara çəkilmiş bilavasitə (subpodratçı) xərcləri göstərir.



# 2020-ci ildə sosial təşəbbüslər

**Azərbaycanda sosial təşəbbüslər**
(ödənilmiş, milyon dollar)

| | |
|---|---|
| bp və bp-nin əməliyyatçısı olduğu layihələrdəki tərəfdaşları | 3,23 |
| bp100% | 4,24 |
| **Cəmi** | **7,47** |


Aztəminatlı ailələrin uşaqları üçün ali təhsil imkanlarının yaradılması - "Gələcəyini Qur" layihəsi



Yerli universitetlər üçün beynəlxalq dərsliklər


İngilis dili biliklərinin inkişafını nəzərdə tutan "Mühəndislər üçün ingilis dili" layihəsi


Erkən müdaxilə və inkişaf xidmətlərinə dəstək layihəsi


İcmalarda gəlir imkanlarının artırılması üçün "Şirin Qızıl" layihəsi